

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 190 (21.851)

7 oktyabr 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## İnformasiya və rabitə xidmətlərinin inkişafı diqqət mərkəzindədir

***Müasir dövrdə informasiya-kommunikasiya texnologiyaları hər bir ölkənin, cəmiyyətin sosial-iqtisadi həyatına geniş şəkildə nüfuz edib. Ümummilli liderimiz Heydər Əliyevin informasiya-kommunikasiya texnologiyaları sahəsində müəyyənləşdirdiyi strategiya Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir.***

Muxtar respublikamızda daim diqqət və qayğı ilə yanaşılan informasiya-kommunikasiya texnologiyaları sahəsi bu gün sürətlə inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri informasiya-kommunikasiya texnologiyalarının inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən danışarkən deyib: ***"Bu gün muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük layihələr həyata keçirilir. 1997-ci ildən başlayaraq muxtar respublikada bütün telefon stansiyaları avtomatlaşdırılmış, fiber-optik kabellər çəkilmiş, yeni poçt şöbələri yaradılmış və digər tədbirlər həyata keçirilmişdir. Qısa zaman kəsiyində görülən işlər muxtar respublikanın informasiya blokadasından çıxmasına səbəb olmuşdur".***

Ötən dövr ərzində muxtar respublika ərazisində mobil rabitə operatorlarının fəaliyyətinin təşkili, internet xidməti sahəsinin yaradılması, mövcud koordinat tipli avtomat telefon stansiyaların elektron tipli avtomat telefon stansiyaları ilə əvəz edilməsi, fiber-optik kabel xətlərinin çəkilişi istiqamətində ardıcıl işlər görülüb. Eyni zamanda "Naxtel" simsiz telefon xidmətinin istifadəyə verilməsi, "Kanal 35" televiziyasının və "Naxçıvanın səsi" radio kanalının efirə verilməsinin təşkili, Naxçıvan Dövlət Televiziya və Radiosunun internet üzərindən yayımlanması, "Universitet" televiziyasında videodərslərin hazırlanması və distant tədrisin tətbiqi məqsədilə avadanlıqların quraşdırılması, Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin və onun rayon filiallarının səmərəli fəaliyyətinin təşkili, iqtisadiyyatın bütün sahələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin uğurla davam etdirilməsi, muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının sürətli inteqrasiyasına təkan verib.

Muxtar respublikada elektron hökumətin formalaşdırılması sahəsində də ardıcıl tədbirlər görülüb, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemləri istifadəyə verilib, dövlət orqanlarına, vətəndaşlara və sahibkarlıq fəaliyyəti subyektlərinə elektron imzaların verilməsinə başlanılıb.

Cəmiyyətin müasirləşməsi və mədəni səviyyəsinin yüksəlməsi ilə ən yeni texnologiyaların tətbiq olunduğu mobil rabitə sahəsində müasir 4G xidməti fəaliyyətə başlayıb. Bundan əlavə, "Evədək optika" layihəsi üzrə görülən işlər də telekommunikasiya sahəsində yeniliklərin əldə olunmasına şərait yaradıb.

Son on ildə muxtar respublikada informasiya və rabitə sahəsinin inkişafına, ümumilikdə, 57 milyon 293 min 100 manat investisiya qoyulub. Təkcə 2016-cı ildə muxtar respublikada informasiya və rabitə sahəsinə 11 milyon 432 min 200 manat investisiya yönəldilib ki, bu da 2006-cı ildəki müvafiq göstəricidən 7,5 dəfə çoxdur.

Reallaşdırılan məqsədyönlü islahatlar muxtar respublikada rabitə və informasiya texnologiyalarının inkişafı üzrə əsas göstəricilərin müsbət dinamikasını təmin edib. İnformasiya texnologiyalarından istifadə qismində 1 yanvar 1996-cı il tarixə muxtar respublikada əsas telefon aparatlarının sayı 23 min 600 nömrə olduğu halda, 2016-cı ilin sonuna bu göstərici 3,1 dəfə artaraq 73 min 751 nömrəyə çatıb. 2016-cı ildə hər yüz ailəyə düşən telefon aparatlarının sayı 72-yə çatdırılıb, əhalinin hər yüz nəfərinə düşən mobil telefonların sayı isə 104 ədəd olub. Hazırda muxtar respublikada 467 mindən artıq mobil telefon aktiv istifadədədir.

Əhalinin maddi rifah halının yaxşılaşmasının və informasiya texnologiyaları sahəsində yaradılmış şəraitin nəticəsidir ki, 1 yanvar 2017-ci il tarixə muxtar respublikanın ev təsərrüfatlarında, müəssisə və təşkilatlarda 126,6 min kompüter mövcud olub. Bu da 1 yanvar 2007-ci il tarixə olan göstəricidən 6,2 dəfə çoxdur. Əhalinin hər 100 nəfərinə düşən kompüterlərin sayı 28 ədəd təşkil edib. 1 yanvar 2017-ci il tarixə muxtar respublikada kompüter istifadəçilərinin sayı 337 min nəfər, internetdən istifadə edənlərin sayı isə 368 min nəfər olub.

Rabitə sahəsində aparılmış məqsədyönlü tədbirlərin nəticəsidir ki, muxtar respublikanın yaşayış ərazilərinin 98 faizində genişzolaqlı internet, 99 faizində simsiz internet xidmətləri təşkil edilib.

Muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı bu sahə üzrə göstərilən xidmətlərin dəyərinin dinamik artımına da zəmin yaradıb. Belə ki, informasiya və rabitə xidmətlərinin dəyəri 2016-cı ildə 48 milyon 727 min 200 manat olub ki, bu da 2006-cı ildəki müvafiq göstəricidən 4,7 dəfə çoxdur.

İnformasiya-kommunikasiya texnologiyalarının davamlı inkişafı, yüksək texnologiyaya əsaslanan iqtisadiyyatın formalaşması üzrə qarşıya qoyulan vəzifələr, bu sahəyə göstərilən diqqət və qayğı, muxtar respublikamızın yüksək texnologiyalar sahəsində yeni uğurlar qazanacağına zəmanət verir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

---

***Məlum olduğu kimi, İslam mədəniyyəti nümunələri ilə zəngin olan, bəşər sivilizasiyasına dəyərli töhfələr vermiş Naxçıvan şəhəri 2009-cu ilin oktyabr ayında İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin Bakı şəhərində keçirilən altıncı konfransında 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunub.***

## Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə əlaqədar hazırlıq işləri davam etdirilir

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 23 yanvar tarixli Sərəncamı ilə elan olunmuş müsabiqədə seçilmiş "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı 2018" loqotipinin təqdimatı keçirilib. Təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinə üzərində loqotip əks olunmuş suvenirlərin hazırlanması üçün təkliflər verməsi və 2017-ci ilin noyabrınadək bu işlərin başa çatdırılması tapşırılıb.

Milli dəyərlərimizin təbliği, onun daha da zənginləşdirilərək gələcək nəsillərə çatdırılması istiqamətində görülən tədbirlərdən biri də sənətkarlıq məhsullarının istehsalıdır. Belə ki, muxtar respublikaya gələn xarici qonaqlar, eləcə də kənd və rayonlarımıza səfər edən yerli və əcnəbi turistlər mənalı istirahətdən yaddaqalan bir xatirə kimi müxtəlif suvenirlər, xalq tətbiqi sənəti nümunələri alır, onları öz ölkələrinə aparırlar. Bu, sənətkarlığın inkişafına, milli hədiyyə və suvenirlərin istehsalına diqqəti artırmağı zəruri edir.

Bu məqsədlə muxtar respublikada xalq yaradıcılığının müxtəlif sahələri üzrə fəaliyyət göstərən sənətkarlarla görüş keçirilib, onlara müxtəlif növ əl işləri, Naxçıvanın İslam mədəniyyətinin paytaxtı olduğunu əks etdirən suvenirlər hazırlanması tövsiyə edilib.

Hazırda sənətkarlar tərəfindən 20 ədəd ağac üzərində, 3 ədəd daşduz üzərində oyma, 15 ədəd keramikadan sənətkarlıq nümunələri, həmçinin 13 ədəd mis üzərində döymə, 20 ədəd muncuqla düzmə, 10 ədəd gips, 5 ədəd xalça, 35 ədəd gil üzərində, o cümlədən "Möminə xatın" milli moda evi tərəfindən 20 ədəd olmaqla, ümumilikdə, 121 ədəd Naxçıvanın İslam mədəniyyətinin paytaxtı olmasını əks etdirən suvenir hazırlanıb. Bu istiqamətdə sənətkarlar tərəfindən işlər davam etdirilir.

Bir neçə aydan sonra Naxçıvan şəhəri İslam mədəniyyətinin paytaxtı statusunu təhvil alacaq. İslam mədəniyyətinin tarixində özünəməxsus yer tutan, müasir inkişafı ilə diqqəti cəlb edən, gündən-günə gözəlləşən Naxçıvan həm də qədim sivilizasiyanın beşiyidir. Bunu nəzərə alsaq, onda çox əhəmiyyətli bir tarixi prosesin şahidi olacağımıza əminlik yaranır. Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı olması muxtar respublikamızın, ölkəmizin, ümumilikdə isə İslam dünyasının mədəni həyatında yaddaqalan bir hadisə kimi tarixdə öz yerini tutacaq.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

---

## Müsabiqənin test imtahanı mərhələsi başa çatıb

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarında inzibati vəzifələrin dördüncü-yeddinci təsnifatı üzrə vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 12 iyul 2017-ci il tarixdə müsabiqə elan edilib.

Müsabiqəyə 642 vakant vəzifə çıxarılıb, həmin vəzifələrin tutulması üçün 744 nəfər sənəd təqdim edib ki, bu da keçirilən müsabiqələrin tarixində ən yüksək göstəricidir.

Vakant vəzifələrlə bağlı ən yüksək müsabiqə vəziyyəti Maliyyə Nazirliyi (62 müraciət), Təhsil Nazirliyi (55 müraciət) və Mərkəzi Seçki Komissiyası (52 müraciət) üzrə qeydə alınıb.

11-29 sentyabr 2017-ci il tarixlərdə müsabiqənin test mərhələləri keçirilib və 388 nəfər müvafiq keçid balını toplayıb.

Hazırda müsahibə mərhələsində namizədlərin iştirakı üçün sənəd qəbulu davam etməkdədir. Sənəd qəbulu başa çatdıqdan sonra qanunvericiliyə uyğun olaraq 30 gün ərzində müsabiqənin müsahibə mərhələsi keçiriləcəkdir.

Müsahibə zamanı namizədin bilik səviyyəsi, peşə hazırlığı, ümumi dünyagörüşü, vakant vəzifə üçün zəruri keyfiyyətləri yoxlanılaraq qiymətləndiriləcək. 16 və daha çox bal toplamış namizədlər müsahibədən müvəffəqiyyətlə keçmiş hesab olunacaqlar.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

---

## Şərur rayonunda yolların təmiri və tikinti işləri yüksək keyfiyyətlə aparılır

*Naxçıvan Muxtar Respublikasında yol-nəqliyyat infrastrukturunun inkişafı diqqət mərkəzində saxlanılır, nəqliyyat kompleksinin yenilənməsinə xüsusi önəm verilir. Kənd yaşayış məntəqələrində müasir yol infrastrukturunun yaradılması da bu gün muxtar respublikada qarşıda duran əsas vəzifələrdəndir.*

Rayon mərkəzləri ilə kəndləri, eləcə də paytaxt Naxçıvan şəhəri ilə ətraf kəndləri birləşdirən avtomobil yolları əsaslı şəkildə yenidən qurulur. Şərur şəhəri ilə kəndləri birləşdirən nəqliyyat yollarının təmiri də bu istiqamətdə görülən işlər çərçivəsində həyata keçirilir. Yollara asfalt-beton örtüyün salınması istər beynəlxalq, istərsə də yerli yük və sərnişin daşımalarının artırılmasına əlverişli şərait yaradır. Bu həm də əhalinin rahatlığının təmin olunmasında mühüm rol oynayır.



Şərur Rayon Yol Təmir-Tikinti İdarəsinin rəisi Natiq Əliyevdən aldığımız məlumata görə, son 8 ayda yolların təmiri istiqamətində, ümumilikdə, 1 milyon 223 min 853 manatlıq iş görülüb. Qarxun-Yuxarı Aralıq-Aşağı Aralıq yolu yenidən qurulub, Aralıq və Siyaqut kəndlərini birləşdirən körpünün əsaslı təmiri başa çatdırılıb, Dərvişlər, Arpaçay, Çəmənli və Babəki kəndlərini birləşdirən 9,7 kilometrlik avtomobil yolu genişləndirilib və asfalt örtük salınıb. Həmin ərazidə kənddaxili yollar yenidən qurulub. Rayonun Ələkli kəndini əhatə edən 3,7 kilometrlik yol genişləndirilib, yol yatağı bərkidilib, qalın asfalt örtük döşənib.

İdarə rəisi onu da bildirdi ki, yolların cari təmiri də diqqət mərkəzində saxlanılır. Belə ki, ilin əvvəlindən indiyədək Şərur şəhərində, Yengicə, Zeyvə, Düdəngə, Sərxanlı, Məmmədsabir, Kosacan, Qarxun kəndlərində bu məqsədlə xeyli iş görülüb.

Payız-qış mövsümünə hazırlıq çərçivəsində qış mövsümündə hərəkətin intensivliyini təmin etmək məqsədilə kompleks tədbirlər həyata keçirilir, texnikalar saz vəziyyətə gətirilir, fəhlə və mexanizatorlar mövsümlə əlaqədar olaraq iş paltarları ilə təmin edilirlər. Qışda uçqar dağ və sərhəd kəndlərinə gedən avtomobil yollarının qardan təmizlənməsində operativliyin təşkili məqsədilə mövcud olan texnikalar lazımi ehtiyat hissələri ilə təchiz olunub. Axura-Havuş yolunda hərəkətin fasiləsizliyini təmin etmək üçün lazımi tədbirlər görülüb, xüsusi texnika ayrılıb.

Natiq Əliyev onu da vurğuladı ki, rayonda yol təsərrüfatının yenidən qurulmasında əsas amil sayılan keyfiyyətli asfalt istehsalı üçün də möhkəm zəmin yaradılıb. Ələkli kəndinin ərazisində quraşdırılmış və gündəlik istehsal gücü 60 ton olan qum-çınqıl və asfalt istehsal edən müasir zavod təmir və bərpa işləri zamanı işimizi xeyli yüngülləşdirir. Zavod həm də Sədərək və Kəngərli rayonlarının bu istiqamətdə tələbatını ödəyir.

Onu da qeyd edək ki, hazırda 10 kilometrlik Vərməziyar-İbadulla-Ərəbyengicə-Qarahəsənli avtomobil yolunda əsaslı təmir işləri davam etdirilir. Kollektiv yaradılan şəraitdən, göstərilən dövlət qayğısından lazımınca bəhrələnərək bundan sonra da müasir yol infrastrukturunun daha yüksək səviyyədə qurulmasına nail olacaqdır.

**Ramiyyə ƏKBƏROVA**

***Ana təbiət bəşəriyyətin yarandığı dövrdən insanların yaşayış məskəni olub. Hava, torpaq, su mənbələri, ağaclar və bitkilər insanların, ümumilikdə isə həyatın davamı üçün müstəsna rol oynayıb. Ancaq zaman keçdikcə insan oğlu bəzən təbiətə münasibətdə fərqli yol tutub, bilərəkdən və yaxud bilməyərəkdən onun zərərinə səbəb olacaq işlərə qol qoyub. Bununla da, təbiətin ahəngi pozulmağa doğru gedib. Nəticədə, ekoloji problemlərdən əziyyət çəkənlər də elə insanların özləri olub. Ancaq həyatda elə insanlar da yaşayıb ki, bütün ömürlərini təbiətin qorunmasına həsr ediblər, onun torpağına, suyuna, bu torpağın üzərində bitən hər ağaca, gülə, çiçəyə böyük məhəbbətlə yanaşıblar.***

*Həsən Əliyev – 110*

# Azərbaycan təbiətinin patriarxı



Əgər həkimlər xəstələri müalicə edib yenidən həyata qaytarırlarsa, təbiəti sevənlər, torpağın, yaşıllıqların nazını çəkənlər gördükləri böyük işlərin sayəsində yüz minlərlə insanın sağlam ekoloji mühitdə yaşamasını təmin edirlər. Bunu da vurğulamaq lazımdır ki, təbiəti sevənlər, eyni zamanda bəşəriyyətin gələcəyinə böyük dəyər verən insanlardır. Məsələn, vaxtilə Hitler Almaniyasında bacarıqlı mühəndislər olsa da, onlar ölümcül silahlar hazırlayırdılar və yaxud savadlı həkimlər olsa da, onların əsas işi əsirlər üzərində ağlasığmaz sınaqlar keçirməkdən ibarət idi. Bu baxımdan həyatlarını təbiəti öyrənməyə, onu dərk etməyə, son nəticədə isə qorumağa həsr etmiş insanlar hər zaman hamı tərəfindən böyük hörmətlə anılır. Əslində, digər elm sahələri ilə müqayisədə dünyada məşhur təbiətşünas-alimlərin sayı elə də çox deyil. Ancaq bəxtimiz onda gətirib ki, ötən əsrdə xalqımız digər sahələrlə yanaşı, təbiətşünaslıq elminin inkişafına da böyük töhfələr vermiş alimlər yetişdirməyi bacarıb. Ekologiya elminə mühüm töhfələr verən, onun insan sağlamlığındakı rolu barədə sanballı elmi tədqiqatların müəllifi olan akademik Həsən Əliyevin ömür yolu isə Azərbaycan təbiətşünaslığında müstəsna rola malikdir.

Azərbaycan təbiətinin böyük hamisi ölkəmizdə coğrafiya və torpaqşünaslıq elmlərinin müxtəlif sahələrinin təşəkkül tapmasında, bir sıra yeni elmi istiqamətlərin bugünkü simasının müəyyənləşməsində mühüm xidmətlər göstərmişdir. Təbiətşünas-alim bütün zəngin fəaliyyəti boyu ətraf mühitin mühafizəsi, ekoloji tarazlıq və ölkənin təbii sərvətlərindən səmərəli istifadə üzrə kompleks proqram və silsilə layihələri daim uğurla həyata keçirmişdir. Akademik Həsən Əliyevin istər görkəmli alim, istərsə də şəxsiyyət kimi böyüklüyü ondadır ki, onun elmi fəaliyyəti, sadəcə, Azərbaycanla məhdudlaşmır, ümumilikdə, dünya ekoloji sisteminə təsiri ilə seçilir. Məsələn, akademik XX əsrin 70-ci illərində yazırdı: *"Ekologiya yaxın gələcəkdə bütün elmləri bir-biri ilə əlaqələndirən nəhəng və möhtəşəm bir çinar ağacını xatırladan fundamental, planetar əhəmiyyətli və çox perspektivli elmə çevriləcəkdir. Ekologiyasız başqa elmlərin inkişafı qeyri-mümkündür".* Zaman keçdikcə bu fikir onun çox uzaqgörən bir alim olduğunu bir daha sübut etdi. O, ekologiyada neçə illər sonra baş verəcək prosesləri əvvəlcədən görə bilirdi. Və yaxud başqa bir misal: görkəmli alim dillər əzbəri olan "Həyəcan təbili" kitabında yazır: *"İnsanı təbiət yaratmış və öz sərvətlərini səxavətlə onun istifadəsinə vermişdir. 600 min ildən artıqdır ki, müasir insanla təbiət arasında münasibət müəyyən nisbətdə davam edir. Bəşəriyyət öz inkişafının yüksək pillələrinə ayaq qoyduqca bu nisbət müəyyən mənada insanların xeyrinə dəyişir. İnsanın sayı artdıqca və texniki vasitələrə daha mükəmməl yiyələndikcə təbiətə daha çox təsir edir, onu dəyişdirir, qırır, öz məqsədləri üçün daha geniş istifadə edir, əvəzində isə ona heç nə qaytarmır. Deməli, insan təbiətə çox ciddi zərər vurur".* Müasir dövrdə bu fikirlərin əyani təsdiqini həyatda daha çox görürük.

Alimin təbiətin mühafizəsinin müxtəlif problemlərinə həsr etdiyi çoxsaylı əsərləri ABŞ, Fransa, Yaponiya, Belçika, Almaniya, Vyetnam və əksər Şərqi Avropa ölkələrində nəşr edilib. Məşhur "Qəhvəyi meşə torpaqları" kitabı 1969-cu ildə Yerusəlim Universiteti tərəfindən ingilis dilində çapdan çıxıb. Brüsseldə çap olunan "Azərbaycan SSR-in dağlıq rayonlarında torpaq eroziyasının inkişafı və bu prosesin qarşısının alınması cəhdi" adlı monoqrafiyası ona böyük şöhrət qazandırıb.

Qeyd edək ki, 1907-ci il dekabr ayının 15-də Zəngəzur qəzasının Comərdli kəndində dünyaya göz açan görkəmli alim Naxçıvan şəhərində Kənd Təsərrüfatı Texnikumunu, Gəncə şəhərində isə Kənd Təsərrüfatı İnstitutunu bitirib. 1932-1934-cü illərdə Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun aspirantı olub. 1934-1935-ci illərdə həmin institutun Şirvan zonasında təcrübə stansiyasının direktoru vəzifəsində çalışıb. Bu dövrdə apardığı elmi tədqiqatlar onun torpaqşünas, aqrobotanik və ekoloq alim kimi gələcək elmi fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirib. 1943-1944-cü illərdə Azərbaycan Elmlər Akademiyasının coğrafiya bölməsinin rəhbəri işlədiyi illərdə müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə edib. 1945-1949-cu illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda baş müəllim işləyən Həsən Əliyev respublikamızda torpaqşünaslıq, kənd təsərrüfatı, aqrobiologiya, ekologiya və coğrafiya kimi elm sahələrinin tədqiqatına geniş yer ayırıb. 1944-1949-cu illərdə Azərbaycan Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsində çalışan alim 1946-1962-ci illərdə Ümumittifaq Torpaqşünaslıq Cəmiyyətinin Azərbaycan filialının sədri olub. 1949-1952-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Botanika İnstitutuna rəhbərlik edən Həsən Əliyev qısa müddətdə səkkizcildlik "Azərbaycan florası" kitabının hazırlanmasına və çapına qayğı göstərməklə bu işin uğurla başa çatmasına böyük əmək sərf edib. Onun təşəbbüsü ilə həmin institutun əməkdaşları tərəfindən axtarış-tədqiqat işləri aparılaraq respublikamızın 52 rayonunun 318 obyekt sahəsində 2469 nadir abidə ağacların, unikal meşəliklərin olması müəyyən edilib. 1952-ci ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilən və 1957-ci ilə kimi bu elmi müəssisənin akademik katibi vəzifəsində işləyən Həsən Əliyev paralel olaraq, Torpaqşünaslıq və Aqrokimya İnstitutunun şöbə müdiri kimi də fəaliyyət göstərib. 1968-ci ildə isə Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutuna direktor təyin edilib. Həmin dövrdə alimin bir sıra kitabları xarici dillərə tərcümə olunub.

Təbiətin mühafizəsinə xüsusi diqqət ayıran akademik ilk dəfə respublikamızda həmin problemin həllinin vacibliyi ilə bağlı öz səsini qaldıran alimdir. Belə ki, 1957-ci ildə Həsən Əliyevin təşəbbüsü ilə Bakıda Zaqafqaziyada təbiətin mühafizəsinə həsr olunmuş müşavirə keçirilib. Bu müşavirədə ilk dəfə dövlət təbiəti mühafizə xidmətinin yeni təşkilati formaları, təbiəti mühafizə üzrə komissiyanın fəaliyyəti təhlil edilib və əməli təkliflər irəli sürülüb. Bir vaxtlar respublikada fəaliyyət göstərmiş Ətraf Mühitə Nəzarət və Təbiəti Mühafizə Komitəsi, Təbiəti Mühafizə Cəmiyyəti bilavasitə böyük alimin şəxsi təşəbbüsü ilə yaradılıb. Həsən Əliyevin redaktorluğu ilə çap edilən "Azərbaycan təbiəti" adlı elmi-kütləvi jurnal təbiətimizin mühafizəsinin təbliğində mühüm rol oynayıb. Bu jurnalda təbiət humanizm, mənəvi paklıq, vətənpərvərlik hisslərinin daşıyıcısı kimi öz qiymətini tapıb.

Azərbaycanda ətraf mühitin mühafizəsi, təbiətə böyük sosial-iqtisadi ziyan vuran ekocoğrafi və dağıdıcı təbii fəlakətlərə dair problemlərin həlli məsələlərində akademik Həsən Əliyevin elmi-təcrübi təklifləri və tövsiyələri böyük rol oynamışdır. Çünki o, respublikamızın bölgələrini qarış-qarış gəzmiş, onların paleogenetik təkamülünü və coğrafi zonallıq prinsiplərinin kompleks aqrotexniki aspektlərini dərindən öyrənmişdir. Digər bir tərəfdən, Azərbaycanda təbiətin, o cümlədən torpaq örtüyünün üfüqi və yüksəklik istiqamətində yayılmasının coğrafi qanunauyğunluqlarını da o işləmişdir. Ona görə ki, regionlarda aqrar təsərrüfatların bu qanunauyğun formada yerləşdirilməsinə və torpaqlardan daha səmərəli və düzgün istifadələrinə əməl edilməsini istəyirdi. Azərbaycanda ilk dəfə istifadəsiz torpaqlardan dəmyə üzümçülükdə, bağçılıqda, otlaq təsərrüfatlarında istifadəni və onların məhsuldarlıq dəyərini təcrübədə sınaqdan çıxaran da Həsən Əliyev olmuşdur. Onun əldə etdiyi təcrübi nəticələrin tətbiqi Azərbaycanda 70-80-ci illərdə bu xarakterli təsərrüfatların, xüsusilə dəmyə üzümçülük sahəsinin artırılmasına geniş imkanlar vermişdir. Akademikin təşəbbüsü ilə Kürboyu "Qarayazı", "Bəsitçay", "Türyançay", "İsmayıllı", "Pirqulu", Kiçik Qafqazda "Göygöl", Qarabağ vulkanik yaylasının cənub hissəsində "Qaragöl" və nəsli kəsilmək təhlükəsi olan ceyranların mühafizəsi, artırılması üçün "Şirvan" Dövlət qoruqları yaradılmışdır.

Sevindirici haldır ki, bu gün həm də görkəmli təbiətşünas-alimin Naxçıvanın ekoloji mühiti, zəngin təbiətinin qorunması haqqındakı arzuları reallığa çevrilib. Bir vaxtlar yaşıl örtük sahəsi ümumi ərazisinin bir faizini belə, təşkil etməyən muxtar respublikada bu gün 12 faizdən çox ərazi yaşıllıqlara bürünüb. Qədim diyarda hər ilin yaz və payız iməciliklərində yeni yaşıllıq zolaqları, meyvə bağları salınır, qədim meyvə sortlarının, uzunömürlü ağacların bərpası diqqətdə saxlanılır. Azərbaycan Prezidentinin 2003-cü il 16 iyun tarixli Sərəncamı ilə Ordubad rayonunda yaradılmış Milli Parka akademik Həsən Əliyevin adının verilməsi görkəmli təbiətşünas-alimə böyük ehtiramın ifadəsidir. Qeyd edək ki, 2009-cu il noyabrın 25-də Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Ordubad Milli Parkının ərazisi Şahbuz, Culfa, Ordubad rayonlarının torpaqları hesabına genişləndirilərək sahəsi 42797,4 hektara çatdırılıb. Həmin sərəncamla milli parkın adı dəyişdirilərək Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı adlandırılıb.

Böyük alimin mənalı həyatı və elmi fəaliyyətinə göstərilən dövlət qayğısının nəticəsidir ki, 2017-ci il fevralın 7-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Akademik Həsən Əliyevin 110 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalayıb. Həmin sərəncamın muxtar respublikamızda icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci il 10 fevral tarixli Sərəncamı ilə "Akademik Həsən Əliyevin 110 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı" təsdiq edilib. Hazırda muxtar respublikamızda bu istiqamətdə müxtəlif tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Bəli, Azərbaycan təbiətinin qorunmasından və təbiət elminin inkişafından söz düşəndə adı həmişə ilk sırada çəkilən Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, kənd təsərrüfatı elmləri doktoru, professor, Əməkdar elm xadimi, ABŞ-ın Ümumdünya Universitetinin fəxri elmlər doktoru olmuş Həsən Əliyev bu gün də ən xoş və səmimi hisslərlə xatırlanır. Ana təbiəti sevməyi və qorumağı hər kəsə tövsiyə edən, dünyanın müxtəlif ölkələrini gəzmiş akademik yazırdı: *"Öz ölkəmiz qədər mənə xoş təsir bağışlayan ikinci bir ölkə tanımıram. Buranın insanları da, iqlimi də, torpağı, suyu, meşəsi, havası da əvəzolunmazdır. Burada yerin altı tükənməz xəzinə, üstü canlı muzeydir. Qaş kirpiyi, kirpik isə gözü qoruduğu kimi, bizim hər birimiz Allahın bizə bəxş etdiyi bu nemətì gözbəbəyimiz təki qorumalıyıq, onun keşiyində durmalıyıq, qayğısını çəkməliyik... Təbiətin bizə bəxş etdiyi ən qiymətli sərvət torpaqdır. Torpaq bizim "çörək ağacımız" olmaqla yanaşı, həm də yaşayışımızın ibtidasını təşkil edir. Torpaq bizim üçün əzizdir, doğma və müqəddəsdir, torpaq Vətən deməkdir".*

Bu fikirlər həm də onun təsdiqidir ki, həqiqətən, doğma Vətəni Azərbaycanı, onun əsrarəngiz təbiətini böyük məhəbbətlə sevən akademik Həsən Əliyevi "Azərbaycan təbiətinin patriarxı" adlandıranlar heç də səhv etmirlər.

✍ **Səbuhi HƏSƏNOV**

# Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksinin fəaliyyəti genişlənir

Naxçıvanda strateji əhəmiyyətli məhsula – taxıla olan tələbatın daxili imkanlar hesabına ödənilməsi istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər öz bəhrəsini verir. Təqdirəlayiq hal isə taxılçılığın aparıcı sahəyə çevrilməsidir. Təkcə bir faktı qeyd edək ki, 2017-ci ilin məhsulu üçün ötən ilin payızında və cari ilin yazında əkilmiş 31 min 632 hektar sahədən 93 min 419 ton taxıl tədarük edilib, hektarın orta məhsuldarlığı 29,5 sentner olub. Muxtar respublikamızda taxılçılığın inkişafı, istehsalın artırılması belə məhsulların saxlanılması üçün anbarların qurulmasI zərurətini yaradıb. Buna görə də "Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində 27 min ton tutuma malik uzunmüddətli və 20 min ton tutuma malik qısamüddətli taxıl ehtiyatı anbarları istifadəyə verilib.

Həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin nəticəsidir ki, bu gün torpaq mülkiyyətçilərinin istehsal etdiyi taxılın alıcı sarıdan heç bir problemi yoxdur. Muxtar respublikada taxılçılıqla məşğul olan sahibkarlardan buğdanın hər kiloqramı 30 qəpikdən alınıb ki, bu da taxılçılığa olan marağın daha da artmasına səbəb olur.



"Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində taxılın tədarük olunub saxlanılmasına və istehsalına əlverişli şərait yaradılıb, yeni un dəyirmanı istifadəyə verilib. Gündəlik istehsal gücü 200 ton un olan dəyirmanda müasir texnoloji avadanlıqlar quraşdırılıb. Ayrı-ayrı sahələrdə olduğu kimi, un istehsalında da regionumuzun tələbatı nəzərə alınıb. Un tələbatı 65 min tona yaxın olan muxtar respublikamızda illik istehsal gücü 66 min ton olan yeni un dəyirmanı yaradılıb. Bu dəyirman işlərin kompleks şəkildə həyata keçirilməsinə imkan verir. Belə ki, həm taxıl tədarük edilərək ehtiyat yaradılır, həm də un istehsal olunaraq muxtar respublika əhalisinin una, çörəyə olan tələbatı ödənilir.

Dəyirmanın keyfiyyətli taxılla təmin olunmasına hər cür şərait yaradılıb. Burada üyüdülən buğdadan 78 faiz un, 22 faiz kəpək alınır. Sifarişə uyğun olaraq əla, I növ və qara un istehsal edilən dəyirmanda insan orqanizmi üçün vacib elementlərlə zəngin olan yeni çeşiddə kəpəkli un da istehsal olunur. Hazır məhsullar 1, 2, 5, 25 və 50 kiloqramlıq kisələrdə "Bərəkət" əmtəə nişanı ilə satışa çıxarılır.

Burada heyvandarlıq və quşçuluğun inkişafında mühüm rol oynayan qarışıq qüvvəli yem istehsalı müəssisəsinin fəaliyyətə başlaması isə heyvandarlıq və quşçuluq təsərrüfatlarının inkişafını təmin edib.

Əhalinin tələbatının yerli istehsal hesabına ödənilməsi, idxaldan asılılığın azaldılması, yerli resurslardan səmərəli istifadənin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər ötən il də uğurla davam etdirilib, "Naxçıvan Taxıl Məmulatları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində yarma istehsalı sahəsi istifadəyə verilib.

Yeni istehsal sahəsinin yaradılmasına Sahibkarlığa Kömək Fondundan 250 min manat, müəssisənin daxili imkanları hesabına 140 min manat olmaqla, ümumilikdə, 390 min manat vəsait sərf olunub. Sərf olunan vəsaitin 314 min manatı avadanlıqların alınmasına, 76 min manatı istehsal sahəsinin tikinti-quraşdırma işlərinə yönəldilib. Ümumi sahəsi 576 kvadratmetr olan müəssisədə son texnoloji nailiyyətlərə əsaslanan Türkiyə istehsalı olan avadanlıqlar quraşdırılıb. Müəssisədə saatda 600 kiloqram yarma istehsal olunur. İstehsal edilən 3 çeşiddə yarma məhsulu 800 qram və 3 kiloqramlıq polietilen paketdə, 25 kiloqramlıq kisədə "Bərəkət" tanıtım nişanı ilə satışa çıxarılır. Onu da qeyd edək ki, indiyə kimi bu məhsula olan tələbat tamamilə idxal hesabına ödənilirdi.

Məhsulların daxili bazarda rəqabətədavamlılığının təmin edilməsi əsas hədəflərdəndir. Müəssisə tərəfindən istehsal olunan yarma məhsulu analoji idxal məhsulunun keyfiyyət göstəriciləri ilə müqayisədə daha yüksəkdir.

✍ **Ramiyyə ƏKBƏROVA**

*9 oktyabr Beynəlxalq Poçt Günüdür*

## Muxtar respublikada poçt sistemi müasir tələblər səviyyəsində qurulub

*Bütün dünyada vahid beynəlxalq poçt qaydalarının müəyyən edilməsi 1874-cü ilin 9 oktyabr tarixində Ümumdünya Poçt İttifaqının yaradılması ilə mümkün olmuşdur. Həmin tarix 1969-cu ildə Yaponiyada keçirilmiş Ümumdünya Poçt İttifaqının Konqresində qəbul edilmiş qərarla hər il Ümumdünya Poçt Günü kimi qeyd olunur.*

Ölkəmizdə rabitə və informasiya texnologiyalarının inkişafı tarixinə qısaca nəzər salsaq, görərik ki, bu inkişafın təməli ötən əsrin 70-ci illərindən qoyulmuşdur. 1969-cu ildən başlayaraq ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə bu sahədə əsaslı dəyişikliklər baş vermiş, o dövrün tələblərinə uyğun poçt və rabitə sistemi yaradılmışdır. Azərbaycan müstəqillik qazandıqdan sonra isə ulu öndərin rəhbərliyi ilə poçt sistemi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Naxçıvan Muxtar Respublikasının poçt-rabitə sistemi də özünəməxsus inkişaf yolu keçmişdir. Naxçıvanda ilk poçt ekspedisiyası hələ 1828-ci ildə yaradılmış, 1864-cü ildə Tiflis-Naxçıvan teleqraf xətti çəkilmişdir. 1918-ci ildə Naxçıvan şəhərində ilk poçt kontoru açılmış, 1927-ci ildə isə Ordubad, Culfa, Şərur poçt-teleqraf şəbəkələri və Naxçıvan şəhərində Poçt-Teleqraf Agentliyi yaradılmışdır. 1996-cı ildən başlayaraq Naxçıvanda poçt xidmətlərinin keyfiyyəti mərhələ-mərhələ yüksəldilmiş, bu sahənin texniki imkanları genişləndirilmişdir. Ötən dövrdə həyata keçirilən ardıcıl tədbirlər nəticəsində poçt müəssisələri bütün növ xidmətlərin təşkili üçün müasir texnologiyalarla təmin edilmiş, xidmətin səviyyəsi yüksəldilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvanpoçt Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında" 2013-cü il 30 iyul tarixli Sərəncamı isə bu sahədə görüləcək işlərin miqyasını daha da genişləndirmişdir.

Muxtar respublikada son illər rabitə sahəsində gedən sürətli inkişaf, fiber-optik xətlərinin çəkilməsi, yüksəksürətli kompüter şəbəkələrinin yaradılması poçt sahəsində də xidmətlərin müasir tələblərə uyğun qurulmasına şərait yaradır. Əhaliyə göstərilən xidmətlərin yüksək səviyyədə təşkili məqsədilə həyata keçirilən tikinti-quruculuq işləri nəticəsində, demək olar ki, bütün poçt bölmələri yeni tikilən binalara köçürülüb, keyfiyyətli xidmət üçün lazımi şərait yaradılıb. Hazırda muxtar respublika ərazisində 1 mərkəzi poçt şöbəsi, 7 rayon poçt filialı və 165 poçt bölməsi fəaliyyət göstərir. 160 poçt bölməsi Məlumat Hesablama Mərkəzinin şəbəkəsinə qoşulub. Poçt məntəqələrində telefon, elektrik, qaz, sudan istifadə haqlarının, Yeni Azərbaycan Partiyasının üzvlük haqlarının, Dövlət Sosial Müdafiə Fondunun ödənişlərinin, "Finca" Qeyri Bank Kredit Təşkilatının kredit borclarının, bələdiyyə ödənişlərinin, Dövlət Yol Polisinin cərimələrinin qəbulu həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin tərkibində yaradılan yeni Naxtel 4G mobil operatoru ilə müqavilə bağlanılıb, nömrələrin və danışıq kartlarının satışı poçt şöbə və bölmələri tərəfindən həyata keçirilməsi təşkil olunub. Hökumət Ödəniş Portalının şəbəkəsinə qoşulmaqla Azərbaycan Respublikası üzrə bank, maliyyə, vergi və sair kimi 17 təşkilatın ödənişlərinin qəbulunun poçt məntəqələrində həyata keçirilməsi təmin olunub. Poçt məntəqələrində nağdsız ödənişlərin təşkili üçün 155 ədəd POS-terminal qoyulub.

Texnologiyanın inkişaf tempi elektron imzadan istifadəyə də tələbatı artırıb. Çünki elektron imzadan istifadə vaxta qənaət etməyə imkan yaratdığı qədər həm də harada olmasından asılı olmayaraq, istənilən sənədi imzalayaraq istənilən məsafəyə tam təhlükəsiz olaraq göndərməyə imkan verir. Bundan başqa, fiziki və ya hüquqi şəxslər müəyyən elektron xidmətlərdən hər hansı sayt üzərindən istifadə etmək üçün elektron imzadan yararlana bilirlər. Bunun üçün Naxçıvan şəhərində server, kompüterlər, kart və pin kodların çapı üçün printerlər qoyulub, əməliyyat zalında ərizələrin qəbulu üçün bölmə yaradılıb. İnsanların bu xidmətə olan tələbatını ödəmək məqsədilə elektron imza kartının mərkəzi poçt şöbələrində verilməsi təşkil edilib.

Naxçıvan şəhərində qaz və elektrik sayğaclarının daha təkmil olan smartkartlı sayğaclarla dəyişdirilməsinə başlanılıb. Poçt bölmələrində həmin kartların yüklənməsi işi təşkil olunub. Bunun üçün Naxçıvan Şəhər Rabitə İdarəsinin texniki binasında server qoyulub, şəbəkəyə qoşulub, Naxçıvan şəhərində 15 poçt məntəqəsində yeni kompüterlər, kart oxuyucuları qurulub, elektrik və qaz təsərrüfatı ilə məşğul olan idarələrdəki kompüterlər də həmin şəbəkəyə qoşulub. Həmin serverlərə "Naxçıvanpoçt" MMC-nin mühəndisləri tərəfindən xidmət edilir.

Həmçinin yeni texnologiyaların tətbiqi telefon və kommunal ödənişlərin internet üzərindən də həyata keçirilməsinə şərait yaradır və bu göstərici ilbəil artır.

Naxçıvan Muxtar Respublikasında 2016-cı ilin dekabr ayından "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin nəzdində "İtirilmiş Əşyaların Sahibinə Çatdırılması Xidməti" fəaliyyətə başlayıb. Bu xidmət heç bir rüsum tələb edilmədən tam humanitar məqsədlə yaradılıb. Vətəndaşlar "Naxçıvanpoçt" MMC-nin ***www.naxcivanpoct.az*** internet saytında yerləşdirilmiş "İtirilən əşyaların qeydiyyatı" bölməsində fərdi qaydada tapdıqları, yaxud axtardıqları əşyalar haqqında məlumatı yerləşdirə bilərlər. Tapılan əşya poçt xidməti vasitəsilə sahibinə çatdırılır.

Bu gün muxtar respublikanın şəhər və kəndlərində quruculuq işləri aparılarkən poçt sahəsinin maddi-texniki bazası möhkəmləndirilir, yeni rabitə evləri və poçt bölmələri istifadəyə verilir, xidmətin səviyyəsi yüksəldilir. Bundan başqa, Naxçıvanda beynəlxalq poçtdaşımalarının həyata keçirilməsi üçün "Express Mail Servis" və "DHL" beynəlxalq ekspress poçt xidmətləri fəaliyyət göstərir. Bu da məktubların, sənədlərin və bağlamaların ən qısa zamanda ünvana etibarlı çatdırılmasını təmin edir. Eyni zamanda göndərişlərin hansı məntəqədə olduğunun internet üzərindən izlənməsinə imkan yaradır. Yaşadığımız XXI əsrin texnika və texnologiyaların yüksək mərhələsi və sürət əsri olduğu, əhalinin müasir poçt xidmətlərinə tələbatı nəzərə alınaraq Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyində poçt xidmətlərinin dünya standartları səviyyəsinə uyğunlaşdırılması məqsədilə müvafiq tədbirlər ardıcıl şəkildə davam etdirilir.

"Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin kollektivi bundan sonra da səylə çalışacaq, yaradılan şəraitdən səmərəli istifadə edərək muxtar respublika sakinlərinə nümunəvi xidmət göstərəcək.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## Acarıstanlı uşaqlar şəhərimizin gəzməli-görməli yerlərində olublar



***Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Gürcüstanın Acarıstan Muxtar Respublikası arasındakı ikitərəfli əlaqələr 2012-ci ildən başlayaraq həyata keçirilən qarşılıqlı rəsmi səfərlər nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoyub. Həmin ildən etibarən müxtəlif istiqamətlərdə, o cümlədən səhiyyə sahəsində əməkdaşlıq əlaqələri genişlənib. Hər il Acarıstan Muxtar Respublikasının aztəminatlı ailələrindən olan və tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən uşaqların Duzdağ Fizioterapiya Mərkəzində pulsuz müalicəsinin təşkili də bu sahədə həyata keçirilən tədbirlərin davamıdır.***

Xəbər verdiyimiz kimi, acarıstanlı aztəminatlı ailələrdən olan, tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən uşaqlar sentyabr ayının 28-dən etibarən Duzdağ Fizioterapiya Mərkəzində müalicə kursu keçiblər.

Dünən acarıstanlı uşaqlar və onların valideynlərindən ibarət qrup Naxçıvan şəhərinin bir sıra mədəniyyət, idman obyektlərini gəzib, görməli yerləri haqqında ətraflı məlumat alıblar. Gəzinti əsnasında qrupdan bir neçə nəfərlə görüşüb həmsöhbət olmaq imkanı əldə etdik:

***Marika XALVAŞİ – Acarıstan Muxtar Respublikası Səhiyyə Nazirliyinin əməkdaşı, qrup rəhbəri, həkim:***



– Mən öz adımdan və bura gələn uşaqların valideynləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlığımı bildirirəm. Bilirik ki, muxtar respublika rəhbərinin qayğısı və diqqəti nəticəsində hər il acarıstanlı aztəminatlı ailələrin uşaqları Naxçıvana gələrək burada müalicə olunurlar. Bizi qonaqpərvərliklə qarşılayıb, uşaqların müalicəsi ilə mütəmadi maraqlanırlar. Uşaqlar və valideynləri müalicənin effektini görürlər. Burada müalicə üçün gözəl şərait yaradılıb. Uşaqların asudə vaxtlarının səmərəli təşkilinə xüsusi diqqətlə yanaşılır. Bu gün Naxçıvan şəhərinin gəzməli-görməli yerlərində olduq. Uşaqlar bu gəzintidən tarixiniz, mədəniyyətiniz, incəsənətiniz və digər sahələr haqqında çoxlu məlumatlar əldə etdilər. Qeyd edim ki, təşkilatçılıq çox yüksək səviyyədədir. Artıq bir neçə muzeydə olub, şəhərin tarixi məkanları haqqında məlumat almışıq. Şəhərinizin qədimliyi və gözəlliyi uşaqların çox xoşuna gəldi.



***Xatuna KVİRİKİDZE – valideyn:***

– Bir valideyn üçün övladının sağlam böyüməsindən önəmli nə ola bilər. Tale elə gətirib ki, 15 yaşında olan oğlum İrakli yuxarı tənəffüs yolları xəstəliklərindən əziyyət çəkməyə başlayıb. Açığını desəm, ailəmizin övladımızın müalicəsi üçün maddi imkanları zəifdir. Bu, məni çox narahat edirdi, oğlumun xəstəliyinin irəliləməsindən qorxurdum. Ancaq sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən acarıstanlı uşaqlar üçün burada pulsuz müalicə imkanlarının yaradıldığını eşidəndə çox sevindim, oğlumun sağlam böyüyəcəyinə ümidlərim artdı. Müalicə müddətində onun səhhətində yaxşılaşma hiss edirəm. Bütün bu yaradılan şəraitə görə təşkilatçılara minnətdarlığımı bildirirəm.

***Nino DİDMALİDZE – məktəbli:***



– Naxçıvan haqqında eşitmişdim. Burada müalicə almaq üçün qrupa yazıldığımı öyrənəndə çox sevindim. Duzdağ Fizioterapiya Mərkəzində yuxarı tənəffüs yolları xəstəliklərinin müalicəsi üçün hər cür şərait var. Mən də bu xəstəlikdən əziyyət çəkdiyim üçün müalicədən sonra tam sağalacağıma inanıram. Arzu edirəm ki, sağlamlığa ehtiyacı olan digər uşaqlar da bu imkandan yararlana bilsinlər. Başqa ölkələrdə olmaq mənim üçün çox maraqlıdır. Naxçıvanda bizə lazımi qayğı göstərir, müalicəmizlə daim maraqlanırlar. Məktəbə qayıdanda Naxçıvanla bağlı xoş təəssüratlarımı sinif yoldaşlarımla bölüşəcəyəm.

***Marian SOİDZE – qrupun ən balaca üzvü:***



– Mən buraya anamla birgə gəlmişəm. Biz artıq bir neçə gündür ki, nağıllardakı sehrli buz saraylara bənzəyən mağaraya gedir, bir neçə saat orada qalırıq. İlk dəfədir ki, duzdan bir mağarada yatıram və mənə hərdən elə gəlir ki, indi hansısa bir pəri duzdan divarların arxasından çıxacaq və öz sehrli çubuğu ilə bütün uşaqları xəstəliklərdən azad edəcək. Mən burada ən çox valideynlərim üçün sevinirəm. Çünki mənim səhhətim yaxşılaşdıqda onlar da çox şad olurlar. Bir neçə gündür ki, anamın üzü gülür, bu da məni çox sevindirir. Hər şey üçün çox sağ olun!

***Luka RUŞADZE – məktəbli:***



– Çox təəssüflənirik ki, bu gün bizim Naxçıvandakı son günümüzdür. Ancaq sevinirəm ki, biz qədim Naxçıvanla tanış olmaq imkanı əldə etdik. Ötən günlər ərzində şəhərin gəzməli-görməli yerlərində, muzeylərində, idman komplekslərində olduq. Naxçıvanda məni ən çox heyrətləndirən yerlərdən biri isə Duzdağdakı mağaralar oldu. Azərbaycanın hər yerindən, hətta dünyanın müxtəlif ölkələrindən buraya müalicə məqsədilə gəldiklərini eşitmişdim. Mən isə ilk dəfə idi, Duzdağa gəlirdim. Bura, doğrudan da, hər kəs üçün bir nemətdir, sağlamlıq mənbəyidir. Biz burdan heç vaxt yaddan çıxmayacaq təəssüratlarla qayıdacağıq. Gördüklərimizi sinif yoldaşlarımıza, bütün tanıdıqlarımıza danışacaq, bu yerlərlə bağlı xoş təəssüratlarımızı onlarla da bölüşəcəyik. Məndən soruşsalar ki, Naxçıvan necə bir yer idi, onda qədim diyarın tarixi abidələrindən, gözəl təbiətindən danışacağam, deyəcəyəm ki, ora istiqanlı, mehriban, gülərüz insanların yaşadığı məkandır.

**Səbuhi HÜSEYNOV**

***Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin 2 nömrəli Təqaüdçülər Klubunda Azərbaycan poeziyasının görkəmli nümayəndəsi Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasının müzakirəsi keçirilib.***

## *"Heydərbabaya salam"* poeması müzakirə edilib



Tədbiri Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova açaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixdə imzaladığı "Oxunması zəruri olan kitablar haqqında" Sərəncamın əhəmiyyətindən danışıb. O, "Heydərbabaya salam" poemasının da daxil olduğu oxunması zəruri olan kitabların müzakirələrinin keçirilməsinin vacibliyini vurğulayıb. Kitabxana direktoru Məhəmmədhüseyn Şəhriyarın yaradıcılığının tədqiqinin və təbliğinin əhəmiyyətindən danışıb, onun nəinki XX əsr Azərbaycan və Yaxın Şərq poeziyasının, bütövlükdə, dünya ədəbiyyatının görkəmli nümayəndələrindən biri olduğunu vurğulayıb.

Tədbirdə təqaüdçü Ələsgər Nehrəmli, Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasının böyük kitabxanaçısı Nuriyyə Cəfərova, kitabxanaçı-biblioqraf Nuray Paşayeva çıxış ediblər. Çıxışlarda bildirilib ki, Şəhriyar yaradıcılığı təkrarsız və həmişəyaşar ədəbi məktəb sayılır. Buna görə də ədəbi tənqid Şəhriyar irsinə geniş yer verib. Xüsusilə də məşhur "Heydərbabaya salam" poeması haqqında yazılan elmi-tədqiqat işləri, ithaflar, xatirələr, publisistik məqalələr ustadın ədəbi mühitdə nüfuzunu göstərən faktlardır.

Qeyd olunub ki, "Heydərbabaya salam" poemasında şair kənd həyatını, onun füsunkar təbiətini, sadə, əməksevər insanlarını, xalqın milli adət və ənənələrini, yaşam tərzini, məişətini yüksək poetik dillə əks etdirib. XX əsrdə Azərbaycan ədəbiyyatı mövzu və ideyaca yeni mərhələyə qədəm qoyduğundan şair və yazıçıların yaradıcılığında milli yaddaşa, mənəvi dəyərlərə geniş yer verilirdi. Milli və mənəvi dəyərlərin poetik dillə tərənnümü və müqəddəs ənənələrimizi özündə ehtiva edən "Heydərbabaya salam" əsəri Şəhriyarın nəinki Azərbaycanda, eyni zamanda dünyada tanıdıb.

Müzakirəyə Aytəkin Qəhrəmanova yekun vurub.

**Nail ƏSGƏROV**



# Daha da gözəldir bu gələn payız

## Əcəmi seyrəngahında düşüncələr

Günü-gündən cavanlaşan qədim Naxçıvanım! Nuhun izləri yaşayan diyar! Böyük Mirzə Cəlilin, Hüseyn Cavidin ana Vətəni! Görkəmli dövlət xadimi Heydər Əliyevi dünyaya bəxş edən müqəddəs məmləkət! Səndə tarixlərin çox nişanı var. İllərdir ki, gözəllik sənin yolyoldaşın olub. Bütün fəsillərdə bu gözəlliyi, füsunkarlığı görmək olar. Diyarımıza yenicə qədəm qoyan payızın gözəllikləri də bu yurdun insanlarına özgə bir ovqat bəxş edir. Bu ovqat xəyallarımı illər öncəyə aparır – ilk payız günlərinin birində, şəhərimizin ən gözəl ünvanı olan Əcəmi seyrəngahına. Axşamüstüdür. Seyrəngah insanlarla doludur. Payızın gözəlliyini burada duymağın özü bir gözəllikdir, – deyə düşünürəm. Yadıma gözəl şairimiz Muxtar Qasımzadənin misraları düşür:

*Təbiət bu yeri gəzib ayrıca*
*Nə qədər gözəllik bağışlayıbdır.*
*Günəş zirvələrdən süzüb ayrıca*
*Dağları yarıdan naxışlayıbdır.*

Bəlkə də, payızın bundan gözəl poetik təsvirinə rast gəlməmişəm. Bu sətirlər bir rəssam tablosunu xatırladır, sanki bəstəkar bəstəsidir, dinlədikcə ruhun təzələnir. Sənin payız gözəlliyini, elə bil ki, birinci dəfədir, görürəm. Düşünürəm ki, elə sənin gözəlliyinin ülviyyəti də bundadır. Hər seyr edəndə o gözəlliyin yeni qatları üzə çıxır, sirli-soraqlı bir aləmə aparır adamı. Qeyri-ixtiyari olaraq üzünə təbəssüm qonur ki, bu yurd mənim yurdumdur, bu payız mənim yurdumun payızıdır.

Mənim, sənin, onun olan bu yurd yerində hələlik payızın ilkin əlamətləri özünü göstərməkdədir. Bu da bir gözəllikdir: ağacların yarpaqları öz rəngini təzə-təzə dəyişməyə başlayıb. Elə o ağacların o yarpaqları yüngülvarı əsən mehdən tərpənməkdədir. Başımı qaldırıb səmanın ənginliklərini seyr etmək istəyirəm. Çətirləşmiş ağacların arasından batmaqda olan Günəşin solğun şüaları gözümə dəyir.

Oturduğum skamyadan qalxıb seyrəngahın içərisinə doğru addımlayıram. Uşaqların, gənclərin, ahıl insanların təbəssümlü baxışları ilə rastlaşıram. Hiss etmək çətin deyil ki, buradakı istirahətdən zövq alırlar.

Seyrəngahdan Qızlar bulağına baxıram. Burada şair dostumun “Qızlar bulağı” adlı şeirini xatırlayıram:

*Qaya pilləkəndən enib gəlirəm*
*Yanında qalmağa, Qızlar bulağı.*
*Bir həzin nəğməyə dönüb gəlirəm*
*Mən sənin olmağa, Qızlar bulağı.*

*Payız da yaşılsan, qış da yaşılsan,*
*Sən mamır qanadlı tovuz quşusan.*
*Sevən ürəklərə elçi daşısan*
*Xəyala dalmağa, Qızlar bulağı...*

Bir neçə il əvvəl burada salınmış şəlalənin yaxınlığında ayaq saxlayıram. Təbiətin ən gözəl mənzərəsini burada yaratmaq insan zəkasının məhsuludur, insan övladının doğma yurd yerinə bağlılığının ifadəsidir, insan amilinə ehtiramın təcəssümüdür. Buradan görünən Qızlar bulağı isə təbiətin doğma Naxçıvana bəxş etdiyi möcüzələrdən biridir.

Bu payız günlərində Qızlar bulağı yenə də gənclərlə doludur. Neçə-neçə məhəbbətə şahidlik edib Qızlar bulağı. Bu gün yenə də bu “xeyirxah missiya”nı yerinə yetirir. Sevənlərə öz qoynunda yer verir.

Payız həm də sevib-sevilənlərin fəslidir, toy-büsat fəslidir. Muxtar Qasımzadənin “Payız toyları” şeirinin hər sətri bu payız günündə xatirələrimizi daha da ülviləşdirir, özümüzü o toylarda görürük, “Qızlar bulağı”nda gəzişən, söhbətləşən, çöhrələrindən məhəbbət yağan gənclərə bir qədər həsədlə baxırıq:

*Yenə xatirələr baş alıb gedər*
*Çəkər ortalığa söz məhəbbəti.*
*Payız toylarında toy-bayram edər*
*Hərənin qəlbində öz məhəbbəti.*

Bu payız günündə bu füsunkar təbiətin, ülvi gözəlliyin qoynunda aldığım təəssürat ruhumu təzələyir. Sanki payıza yenidən vuruluram. Bu, doğma Naxçıvanımın payızıdır, sənin, mənim, hamımızın payızıdır...

✍ **Muxtar MƏMMƏDOV**

# Zərif əllərin yaratdığı əsərlər milli və mənəvi dəyərlərimizin yaşadılmasında mühüm rol oynayır



Muxtar respublikada müxtəlif fəaliyyət sahələri ilə məşğul olan qadınlar kimi, xüsusi istedadları ilə seçilən, rəssamlıq, toxuculuq, el sənəti nümunələrini yaşatmağı özünə fəaliyyət sahəsi seçən və asudə vaxtını bu işlərə sərf edən qadınlara xüsusi diqqət göstərilir. Onların məşğulluğu təmin edilir, sosial rifah hallarının yüksəldilməsi üçün əl işlərinin sərgi-satışları təşkil olunur. Onu da xüsusi vurğulamaq lazımdır ki, Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada xalçaçı, dərzi, ağac üzərində oyma kimi peşə kursları təşkil olunur ki, bu kurslara sağlamlıq imkanları məhdud qadınlar da cəlb edilir. Onlara istər texniki köməklik, istərsə də mənəvi dəstək göstərilməsi, hazırladıqları əl işlərindən ibarət sərgilərin təşkili də diqqət mərkəzində saxlanılır.

Sağlamlıq imkanları məhdud şəxslərin və istedadlı qadınların rəsm və əl işlərinin növbəti satış-sərgisi sentyabrın 29-da Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında təşkil olunmuşdu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Tədbirlər Planına uyğun olaraq Bilik Fondunun Himayəçilik Şurasının, Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkil etdiyi sərgi-satışa böyük maraq var idi. Buraya üz tutan muxtar respublika sakinləri və qonaqlar hədiyyəlik əşyalar alır, sərgidə nümayiş etdirilən digər nümunələrlə maraqlanırdılar.

On gün davam edən sərgi başa çatmamış biz də Heydər Əliyev Sarayının sərgi-satış üçün təşkil olunmuş foyesinə yollandıq. Burada sərgiyə baxış üçün üz tutanlarla, eləcə də istedadlı qadınlarla söhbətləşdik. Sərgiyə muncuqlarla işlənmiş bəzək əşyaları çıxaran Xuraman Səfərova evdar qadındır. O, toxuma və tikmədə, qadın bəzək əşyalarının hazırlanmasında çox bacarıqlıdır, daha çox mirvarilərlə müxtəlif sənət nümunələri yaratmağa üstünlük verir. Xuraman xanım deyir ki, təşkilatçı qurumların nümayəndələri satışın yaxşı təşkil olunması üçün əllərindən gələni əsirgəmirlər. Belə sərgi-satışlar onların karına gəlir, bir növ, maddi baxımdan kömək edir. Sərgiyə gələnlərin onun işlərinə maraq göstərməsinə çox sevinir.

Dekorativ-tətbiqi sənət nümunələri, bədii tikmələr, xalça məmulatları çıxaran sağlamlıq imkanı məhdud olan istedadlı qadın Nənəxanım Məmmədovanın da müxtəlif tikmələri sərgidə böyük maraqla qarşılanıb. Nənəxanımın fikrincə, onun kimilərin firavan həyatına, ictimai mühitlə geniş əlaqələrinin yaradılmasına doğru yönəldilmiş belə addımlar bu qəbildən olan qadınların cəmiyyətə inteqrasiyası baxımından mühüm addımdır.

Sərgidə nümayiş etdirilən hər bir əl işinə diqqətlə baxanda açıq-aydın görünürdü ki, ilmələrdə, naxışlarda, ornamentlərdə bu torpağın hər qarışının, xalqımızın mədəniyyətinin, incəsənətinin, tarixinin, etnoqrafiyasının izləri var. Buradakı əsərlərdə xanımların hər birinin fərqli bir istedada, fərqli bir əl qabiliyyətinə, incə zövq və fantaziyaya malik olduqlarını duymaq çətin deyildi.

Rəngarəng xalçalara baxan Xanım Əliyeva ilə həmsöhbət olduq. O, qadınların əl işlərinin alıcıları arasındadır. Deyir ki, bu sərgi məni çox heyran etdi və üzərində Naxçıvana aid ornamentlər və təsvirlər olan xalçanı aldım. Çox böyük zövqlə işlənən bu xalça evimin bəzəyi olacaq.

Sərgidə olarkən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin əməkdaşı Zərnigar Orucəliyeva ilə də həmsöhbət olduq. O bildirdi ki, muxtar respublikamızda istedadlı qadınların əl işlərindən ibarət sərgi-satışların təşkili artıq ənənə halını alıb. Regionumuzda belə sərgi-satışların keçirilməsində məqsəd istedadlı qadınların, eləcə də sağlamlıq imkanları məhdud istedadlı insanların fəaliyyətini ictimaiyyətə təqdim etmək, onların cəmiyyət tərəfindən tanınmasına şərait yaratmaq, gələcək fəaliyyətlərinə stimul vermək və istedadları sayəsində maddi rifah halının yaxşılaşmasına dəstək olmaqdır. O bildirdi ki, sərgidə muxtar respublikada yaşayan 269 istedadlı qadının müxtəlif janrlarda çəkdikləri rəsm əsərləri və əl işlərindən ibarət 2006 yaradıcılıq nümunəsi nümayiş etdirilir.

Bu gün biz qadınların taleyinə qədim diyarımızın tarixinin ən maraqlı, qızıl hərflərlə yazılmış dövrünün şahidi olmaq qisməti düşüb. Muxtar respublikamızın gündən-günə tərəqqisi, iqtisadi inkişafımızın tempi, milli və mənəvi irsimizin dünyaya çatdırılması, təhsilə yeni yanaşmaların təşəkkülü, səhiyyəmizin inkişafı bizim gözümüz önündə baş verir. Göstərilən qayğıdan bəhrələnən qadınlarımız da milli və mənəvi dəyərlərimizin qoruyucuları, adət-ənənələrimizin yaşadıcıları kimi əllərindən gələni əsirgəmirlər.

✍ **Gülcamal TAHİROVA**

***Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyası, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirliklərinin təşkilatçılığı ilə məktəblilər arasında “Şən startlar” əyləncəli idman oyunlarına start verilib.***

# *“Şən startlar”* əyləncəli idman oyunları keçirilir



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən yarışın açılış mərasimində çıxış edən Yüngül Atletika Federasiyasının sədri Rövşən Məmmədov bildirib ki, muxtar respublikada idmanın inkişafına xüsusi diqqət göstərilir. Bunun nəticəsidir ki, idmançılarımız çıxış etdikləri turnirlərdə, yarışlarda böyük uğurlar əldə edirlər. İdmançıların düzgün istiqamətləndirilməsində federasiyaların üzərinə böyük məsuliyyət düşür. Yüngül Atletika Federasiyası da aidiyyatı idman növünün təbliği üçün mütəmadi olaraq yarışlar təşkil edir.

Naxçıvan Muxtar Respublikasında idmanın inkişafı sahəsində mühüm işlərin görüldüyünü vurğulayan gənclər və idman naziri Azad Cabbarov qeyd edib ki, uşaqların fiziki və mənəvi hazırlığı, asudə vaxtlarının səmərəli təşkili daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikada müasir idman infrastrukturunun, olimpiya komplekslərinin, digər obyektlərin istifadəyə verilməsi, idmanın müxtəlif növləri üzrə federasiyaların yaradılması çoxsaylı gənclərin idmana cəlb olunmasına imkan verib. Naxçıvanda idman ənənələrinin köklü olması, bu gün uşaqların da bu sahəyə kütləvi şəkildə axınına səbəb olub. Hazırda muxtar respublikamızın hər bir bölgəsində idmanla məşğul olmaq istəyən uşaq və yeniyetmələr üçün hər cür şərait yaradılıb. Uşaqların idmana marağı sağlam gələcəyin formalaşmasından xəbər verir.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov qeyd edib ki, bu gün muxtar respublikada təhsilin inkişafı, bədən tərbiyəsi və idmanın kütləviliyinə nail olunması, müasir idman infrastrukturunun yaradılması, gənclərin idmana marağının artırılması diqqət mərkəzində saxlanılır. Bu gün yeni-yeni məktəb binaları inşa edilir və ya əsaslı şəkildə yenidən qurulur, idman infrastrukturunun gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülür.

Keçirilən yarışlarda Naxçıvan şəhər ümumtəhsil orta məktəblərindən 8 komanda – Heydər Əliyev adına tam orta məktəb, 2, 5, 8, 12, 14, 15 və 16 nömrəli tam orta məktəblərin komandaları mübarizə aparırlar. Reqlamentə əsasən yarışda komandalar 8 nəfərdən təşkil edilmiş (4-cü sinifdən 1 oğlan, 1 qız, 5-ci sinifdən 1 qız, 1 oğlan, 6-cı sinifdən 1 oğlan, 7-ci sinifdən 1 qız, 8-ci sinifdən 2 oğlan və 1 müəllim) qruplardan ibarətdir. Komanda üzvlərindən biri müəyyən səbəblərdən oyunda iştirak etmədikdə, yarışdan əvvəl və ya sonra komandaya texniki məğlubiyyət verilir. Oyunların qaydalar çərçivəsində keçirilməsini, həmçinin iştirakçıların qiymətləndirilməsini tanınmış idmançılardan, idman veteranlarından, məşqçilərdən, hakimlərdən və təşkilat komitəsinin bir üzvündən ibarət münsiflər heyəti təyin edir. Yarışlar zamanı estafetlərin qalibləri 50-dən 100-ə, məğlub tərəf isə 50-dən aşağı xallarla qiymətləndirilir. Pozulan qaydalara görə münsiflər iştirakçılardan 5, 10 və 15 cərimə xalı tuta bilərlər.

Yarışda məktəblilər müxtəlif idman növləri üzrə qüvvələrini sınayıblar.

Qeyd edək ki, “Şən startlar” əyləncəli idman oyunlarına bu gün keçiriləcək görüşlərdən sonra yekun vurulacaq.

✍ **Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 796